*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 443-451*

https://doi.org/10.62837/2026.5.443

**SALAYEVA ŞƏBNƏM ƏDALƏT**
**Azərbaycan Universitetinin doktorantı**
**UOT: 821.512.162.09**
**e-mail shebsalayeva@mail.com**
**ORCİD İD 0009-0009-9319-4177**

# Ə.HAQVERDİYEVİN "PƏRİ CADU" DRAMINDA İNSANIN EKZİSTENSİAL BÖHRANI VƏ ÖZGƏLƏŞMƏ PROBLEMİ.

**Xülasə**

Məqalədə Azərbaycan klassik dramaturgiyasının görkəmli nümayəndəsi Ə.Haqverdiyevin "Pəri Cadu" dramı elmi-nəzəri cəhətdən yeni müstəvidə nəzərdən keçirilir. Tədqiqat işində əsas məqsəd əsərdəki mistik elementlərdən istifadənin folklorla əlaqəli olması ilə yanaşı, eyni zamanda obrazların ontoloji böhranını əks etdirdiyini əsaslandırmaqdır. Məqalədə dramın mərkəzi obrazlarından olan Qurbanın timsalında insanın öz varlığının mahiyyətini itirərək özgələşməsi, cəmiyyətlə fərdi istəkləri arasındakı ziddiyətlərin kəskinləşməsi araşdırılır, Qurban obrazının mənəvi aşınması ekzistensial böhran kontekstində təhlilə cəlb olunur. Əsərdəki Qurban obrazı sadəcə varlanmaq istəyən kasıb bir kəndli obrazı kimi deyil, varlığının mahiyyətini itirmiş, "mən kiməm?" sualı qarşsında aciz qalan müasir insanın prototipi kimi araşdırılacaqdır. Dram əsərində yazıçının magik təfəkkürün realist təsvirlərlə vəhdətindən istifadə edərək insanın öz taleyi üzərində məsuliyyət daşıdığını əks etdirməsi fəlsəfi-psixoloji aspektlər kontekstində təhlil olunur və əsərin ənənəvi dramaturgiyadan fəlsəfi-ekzistensial dramaturgiyaya keçid xüsusiyyətləri müəyyənləşdirilir.

**Açar sözlər:** *varlıq böhranı, ekzistensializm, mistika, özgləşmə, azad iradə, faciə*.

Ə.Haqverdiyev realizmini müasirlərindən fərqləndirən əsas cəhətlərdən biri onun əsərlərindəki "psixoloji dərinlik və metafizik qat" axtarışıdır. Bu baxımdan Ə.Haqverdiyev Azərbaycan ədəbiyyatında klassik realizm hüdudlarını aşaraq, insan taleyini magik və mistik elementlərlə vizuallaşdıran ilk dramaturq hesab olunur. "Pəri cadu" faciəsində hadisələrin mərkəzində duran cadu və tilsim elementləri, əslində qəhrəmanın düşdüyü ontoloji çıxılmazlığın bədii metaforudur. Yazıçı kasıb kəndli Qurbanın yoxsulluqdan çıxaraq zənginləşməsi prosesini insanın öz "mən"inə yadlaşması və heçliyə yuvarlanması fonunda təsvir etmişdir. Ədib XX əsr Azərbaycan cəmiyyətinin gerçəkliyini sadəcə konkret dövrün məişət təsvirləri ilə məhdudlaşdırmamış, eyni zamanda tənqidi realizmdən "psixoloji realizmə" keçid etmişdir. Məhz bu keçid bizə əsəri Jan Pol Sartrın ekzistensial fəlsəfəsi kontekstində təhlil etməyə imkan yaradır.

“Pəri Cadu” dramının əsas obrazı Qurbanın mənəvi tənəzzülü Jan Pol Sartrın ekzistensial fəlsəfəsinin əsasında dayanan “insan azadlığa məhkumdur” ifadəsinin aydın təzahürüdür. Sartr ekzistensializminə görə azadlıq insan üçün bəzən böyük bir güc, bəzən isə ağır bir yükdür. ”Pəri Cadu” əsərindəki Qurban obrazı “azadlığın yükü” altında əzilən və onu daşıya bilməyən bir xarakterdir. Sartrın ekzistensialist fəlsəfəsinə görə insan dünyaya öz istəyi ilə gəlməsə də, seçimlərində azaddır. “ Sartr göstərirdi ki, insan azdlığa məhkumdur. O özünü həmişə gələcəkdə görməyə doğru yönəlir. Buna görə də insanın mahiyyəti onun niyyəti, gələcəyidir.” [ 7, 102.]. Yəni əslində seçimlərimiz bizim kim olduğumuzun göstəricisidir. Əsərdəki Qurban obrazı da təbii ki, digər insanlar kimi dünyaya öz istəyi ilə gəlməmişdir. Ancaq o azad bir insan idi və qarşısında müəyyən seçimlər var idi. Bu seçimlər artıq onun kimliyini formalaşdıracaqdı. Yəni dünyaya gəlmək Qurbanın iradəsi xaricində olsa da, o doğulduqdan sonrakı dövrdə atdığı hər addıma, etdiyi hər bir hərəkətə görə məsuliyyət daşıyırdı. Sartrın baxış bucağından baxsaq Qurban seçim etmək məcburiyyətində idi, ancaq seçimdən imtina da edə bilərdi. Heç bir seçimin olmaması da əslində nədənsə imtina etməkdir ki, bu özü də özlüyündə bir seçim hesab olunur. Qurban seçim olaraq Şamama cadu ilə ittifaqa girməyi üstün tutur. Bu da onu sonrakı taleyinə təsir etmiş oldu. Əslində buradakı Şamama cadusu və Pəri sadəcə mifoloji obraz deyil, həm də Qurbanın zəifliyinin simvoludur. Pəri Qurbanın mənəvi aşınmasının metaforik obrazıdır.

Əsərin əvvəlində Qurban vicdanlı və mənəvi baxımdan düzgün insan kimi təsvir olunur. Amma kasıb odunçu Qurban varlamaq istəyir, bəy kimi yaşamaq, gözəl qadına sahib olmaq istəyir. “ İndi nə olardı, mənim də bir yüz manat pulum olardı, bir dənə də gözəl arvadım. Qapımda nökərlərim səf çəkib duraydılar. Adım da olaydı Qurban bəy.” [2,113]. Təbii ki, bəy olmaq onun fərdi seçimidir. Amma bu seçim ona baha başa gəlir, onu öz mahiyyətindən uzaqlaşdırıb yeni bir böhrana sürükləmiş olur. Lakin yeni formalaşan Qurban mənfi xüsusiyyətləri özündə cəmləşdirən bir varlıq kimi təzahür edir. J.P.Sartr qeyd edirdi: “ Hər seçim bir imtinadır.” [5,587 ]- Yəni biz bir şeyi seçdikdə əslində digər bir nəsnədən imtina etmiş oluruq. Burada isə Qurban, yeni seçimi ilə öz “Mən”indən imtina etmiş olur, bu imtina onun özünə yadlaşması, özgələşməsidir ( alienation). Belə ki, Qurbanın azad seçimi və varlanmaq ehtirası onu “Mən”liyindən uzaqlaşdırıb daxilən heçliyə sürükləyir, onun ekzistensial böhranı başlayır. Əslində personajın yaşadığı faciə maddi yoxsulluqdan qaynaqlanmır, onun azad seçiminin öz mənliyinə olan xəyanətindən doğur. Qurbanın ekzistensial böhranı onun daxili mənindən uzaqlaşması, özünə yadlaşmasıdır.

Qurban obrazı həm də J.P.Sartrın dediyi “insan nədirsə odur, insan nə deyilsə odur” [5,43 ]- konsepsiyasını təcəssüm etdirir. Yəni fərdi seçimlərimiz bizi formalaşdırır, kim olduğumuzdan xəbər verir. Qurban kasıb bir ailə başçısı idi. O, mövcud vəziyyətini olduğu kimi də saxlaya bilərdi, lakin bu onun dəyişməyəcəyi

anlamına gəlmirdi. Belə ki, Qurban istəkləri və seçimləri arasında qalmışdı. Qurbanın verdiyi qərar, yəni Şamama cadu ilə ittifaqı onun keçmişini silib yeni bir “Mən” yaratdı. Amma yeni yaratdığı “məni” onun istəklərinin ağırlığını daşıya bilmədi. Bu da sonda özgələşməyə səbəb oldu. Şamama cadunun təsiri ilə Hafizə, daha sonra Pəri ilə qarşılaşması başqalarının “əşyasına” çevrilməsi onun böhranını daha da dərinləşdirir, mahiyyətindən uzaqlaşdırır. Qurbanın faciəsi də onda idi ki, sonda o öz əməlləri və onların nəticəsi ilə üzbəüz qalır. Bu seçimləri o azad iradəsinin təsiri altında etmişdi, kimsə ona təsir göstərməmişdi.

Daha sonra əsərdə J.P.Sartrın qeyd etdiyi **“**mauvaise foi**”,** yəni “pis niyyət” amili və özünə bəraət cəhdlərinə rast gəlirik: "Özünüaldatma fenomenində nə şüurlu yalanların, nə də qondarma arqumentlərin heç bir rolu yoxdur. Əslində, ilkin özünüaldatma aktı, qaçılması qeyri-mümkün olan şeydən - insanın öz faktiki varlığından qaçmağa yönəlir. Lakin sırf bu qaçış cəhdinin özü belə, özünüaldatmanı varlığın nüvəsindəki daxili parçalanma kimi təzahür etdirir; özünüaldatma elə bu parçalanmanın özünə çevrilmək istəyir. Çünki varlığımız qarşısında nümayiş etdirə biləcəyimiz iki cür davranış, həmin varlığın özünəməxsus təbiəti və onun «özündə-varlıq» (en-soi) ilə olan vasitəsiz münasibəti tərəfindən şərtləndirilir." [5, 128]- Sartr belə hesab edirdi ki, fərd öz hərəkətlərinə və ya onların nəticələrinə görə başqalarını (taleyi) günahlandırmaqla əslində özünü aldadır. Biz seçimlərimizin ağırlığını daşımağa məhkumuq, çünki taleyimizi özümüz müəyyən edirik. Əsərin ilk səhifələrindən bunun şahidi oluruq: Qurban ailəsini tərk edərkən öz yoxsulluğunu, kasıblığını dilə gətirməklə bunu çıxış yolu kimi göstərir. Burada o sanki “pis niyyətinə” bəraət qazandırır, özünü müdafiə etməyə çalışır. O, ailəsini tərk edib Hafizəyə üz tutanda” pis niyyəti” aşkara çıxır. Ancaq Hafizəyə “-Yığdın mənim canımı boğazıma! Mən gedirəm, bu da sən.” [3,399]- deyib onu öldürdükdə isə özünün pis niyyətinə bəraət qazandırmış olur. Sanki onun vəziyyətə düşməsinin əsl günahkarı Hafizə idi. Qurban özünə bəraət qazandırır və “pis niyyətini“ bu şəkildə pərdələməyə çalışır. Qurban burda özünü həqiqətən bir “qurban” kimi göstərməyə çalışır, baxmayaraq ki bunları şüurlu şəkildə və öz iradəsi ilə edirdi. Əslində müəllifin obraz üçün bu adı seçməsi heç də təsadüfi deyil. Ancaq Qurban burda qeyd etdiyimiz kimi özünə haqq qazandırmaq və daxilən sakitləşmək üçün belə deyir. Qurban seçimlərini azad şəkildə və bilərək etmişdir, yəni “qurban” olmağı könüllü və şüurlu şəkildə qəbul etmişdir.

Sartrın ekzistensial görüşlərini ifadə edən “Bağlı qapılar arxasında” əsərində qeyd edir: “Cəhənnəm başqalarıdır.**”**. Bu ifadə insanın özünü başqalarının gözü ilə dəyərləndirməsini nəzərdə tutur. Yəni fərdin başqalarının istəklərinə uyğunlaşma cəhdləri, özünü qəlibə salaraq daxili “mən”inə qarşı çıxması həyatını cəhənnəmə çevirir. Qurbanın Şamam caduya aldanması, əvvəlcə Hafizə, daha sonra isə Pəri Cadu ilə rastlaşması onu bu obrzalardan asılı hala salaraq əsirə çevrir. O, artıq öz fərdi mahiyyətini itirmiş və Pərinin iradəsindən asılı bir obyektə çevrilmişdir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 443-451*

Hafizənin istəklərini yerinə yetirmək və onu məmnun etmək üçün öz ailəsinə yadlaşması Qurbanın həyatını bitmək bilməyən cəhənnəm əzabına çevirir. Belə ki, əvvəlcə Hafizənin, sonra isə Pərinin iradəsinə tabe olaraq yaşamaq Qurbanın varlığını ekzistensial böhrana doğru aparır. Qurbanın yaşadığı bu mənəvi tənəzzül və həyatın mənasızlığı qarşısındakı çarəsizliyi bizi sadəcə J.P.Sartrın seçimlər nəzəriyyəsi ilə kifatlənməyib, Albert Kamyunun “ absurd” fəlsəfəsinə müraciət etməyə vadar edir.

Qurban obrazını A.Kamyunun absurd və yadlaşma konsepsiyasında təhlil edək: Kamyunun “absurd”u insanın dünyada məna, ədalət axtarılmasının boşa çıxmasıdır. Belə ki, Kamyu dünyada məna axtarmağı illuziya hesab edirdi. A.Kamyuya görə həyatın mənasızlığını dərk edib yaşamaq ona qarşı üsyandır. Kamyu dünyanı absurd və irrasional adlandırırdı.

A.Kamyunun ekzistensial görüşlərinin bir qismi onun “Sizif haqqında mif” əsərində öz əksini tapmışdır. Kamyunun qəhrəmanı tanrıların ən ağır şəkildə cəzlandırdığı Sizif hər gün ağır bir daşı qayanın başına qaldırmağa məhkum edilir. Ancaq daş hər dəfə yenidən qayadan aşağı yuvarlanır, bu əzablı proses hər gün təkrarlanır. Sizif bu prosesi şüurlu şəkildə edirdi və bununla da sanki taleyinə istehza edərək, dünyanın absurd olduğunu qəbul edirdi. Çünki baş verən hadisə taleyin cəzası deyildi, öz seçimi idi. Kamyu bunu belə ifadə etmişdi: "Sizifin sükut dolu sevincinin mahiyyəti buradadır: onun taleyi fərdi iradəsinin əsəridir. Qaya isə onun şəxsi reallığıdır. Eləcə də, absurd insan öz iztirablarını dərindən təhlil etməyə başladığı an bütün bütləri sükuta qərq edir." .[1, 130] Sizifin bu hərəkəti təkrarlaması əslində absurda qarşı bir üsyandır. Sizif əmək sərf edərkən bu işin mənasızlığını hiss etmirdi, o yalnız fasilə müddətində , yəni daş aşağı yuvarlandıqdan sonra yenidən onu qaldırmağa gedərkən bu mənasızlığı dərk edir. Bütün bunlara baxmayaraq şüuru ona özünü kənardan müşahidə etməklə yanaşı absurdu qəbul etməyə imkan veriridi. Ə.Haqverdiyevin qəhrəmanı Qurban da oxşar vəziyyəti yaşayır, o da hər gün meşəyə gedir, odun yığır. Ardıcıl olaraq eyni hərkətlərin təkrarlanması onu bezdirir, yorur. O da fasilə müddətində təkrarlanan hərəkətlərin mənasızlığını dərk edirdi. Belə ki, dostu Niyaz ilə söhbətində biz bu səhnənin şahidi oluruq. A.Kamyunun Sizifindən fərqli olaraq Qurban həyatda məna axtarmağa çalışırdı.

Eyni zamanda Qurban “öz daşını” qaldırarkən başqalarından - Şamama cadudan kömək istəyərək “-Gələsən bir tövr Hafizə xanımı alasan mənə, bəlkə mən də Qurban bəy olam.”[2, 126]- deməklə bunun bir aldanış olduğunu əvvəlcə dərk etmirdi, belə ki , o , illuziyaya aldandı. Hamı kimi olmaq, varlanmaq, gözəl qadına sahib olmaq arzusu ilə o özünə “yadlaşma”ğa başladı. Qurbanın Hafizəyə, Pəriyə sığınması absurddan qurtulmaq üçün bir bəhanə idi. Hafizəyə qaçış Qurbanın öz mənindən uzaqlaşmasıdır, azadlığın itirməsidir. Bu A.Kamyunun nəzəriyyəsindəki cəmiyyətin normaları ilə Qurbanın daxili tələbləri toqquşması fonunda öz əksini tapır. Tarazlıq pozulması xaosa, bu da öz növbəsində faciəyə səbəb olur. Çünki

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 443-451*

Kamyunun qəhrəmanı şüurlu həyatı seçirdi, Haqverdiyevin qəhrəmanı isə ondan fərqli olaraq irrasional həyatı seçmişdi. Qurban hərəkətlərinin mənasızlığından xəbərsiz idi və bu da onu absurdun bir parçasına çevirmişdi. Sizif bu mübarizədə tək idi , heç kəsə zərər vermirdi, ancaq Qurban isə təkcə özünə deyil, digərlərinə də zərər verdi. Digərləri də Qurbanın “qayası” altında qalaraq məhv oldu.

Hər iki əsərdən çıxan nəticə odur ki, həyatın bizə qəbul etdirməyə çalışdığı qəliblərə qarşı çıxaraq öz seçimlərimizin məsuliyyətini daşımalıyıq. A.Kamyu fəlsəfəsində həyatın mənasızlığına qarşı üsyan olaraq, şüurlu seçim məsuliyyətimizin olması ekzistensializmin digər bir nümayəndəsi Soren Kiyerkeqorun fəlsəfi dünyasına aparır.

Kamyu fəlsəfəsində absurdla üzləşmək fərdin öz daxilindəki tənha mübarizəsidirsə, S.Kiyerkeqora görə isə bu fərdin bütün etik normaları aşıb tanrı ilə əlaqəyə girməsini nəzərdə tutur. Əgər bu əsəri S.Kiyerkeqorun ekzistensial müstəvisindən təhlil etsək, hər iki əsərdə insanın “seçim”, “tələ” və “mənəvi sınaq” qarşısında qalması ortaq mövzulardır. Belə ki, S.Kiyerkeqor “Qorxu və titrəmə” əsərində fərdin cəmiyyətdən və onun diktə etdiyi dəyərlər sistemindən uzaqlaşaraq öz daxili həqiqətinə yönəlməsini təsvir edir. Filosof, əsərdə insanın həyatını estetik, etik və dini mərhələdə təsvir edirdi. S.Kiyerkeqor “ Qorxu və titrəmə” əsərində bu üç anlayışın bir-birilə sıx bağlı olduğunu göstərir. “Pəri Cadu” əsərində daxili tənəzzül yaşayan Qurban bu ardıcıllığın əksinə hərəkət edərək etik mərhələdən estetik mərhələyə keçmiş olur. S.Kiyerkeqor “Etik “olan dedikdə fərdin cəmiyyət üçün müəyyən olunmuş qaydalara və ödəliklərə əməl etməsini nəzərdə tutrdu: ” Etik olan universal xarakter daşıyır və universallığı etibarilə hər bir fərd üçün məcburidir. O, öz-özlüyündə immanentdir (daxili mahiyyətə malikdir); özündən kənarda hər hansı bir telos’a (ali məqsədə) istinad etmir, əksinə, xaricdəki hər bir fenomenin telos’u funksiyasını yerinə yetirir. Etik olan öz məzmunu ilə tamlıq kəsb etdikdə, ondan kənara çıxan yeni bir mərhələ mövcud deyildir.“ [6,99]. Əsərin əvvəlində ailə başçısı kimi öz öhdəliklərini yerinə yetirən və ailəsini maddi cəhətdən təmin etmyə çalışan Qurban hələ “etik” olanı icra edirdi. Lakin onun məsuliyytədən qaçıb estetik olanı, yəni dünyadakı zövqü və həzzi seçməsi mövcud nizamı pozur. S.Kiyerkeqor qeyd edirdi ki, "Fərdin telos’u (hədəfi) mövcuddursa, həmin hədəf məhz özünün ifadə olunduğu müstəvidə təzahür edir. Bu səbəbdən, fərdin mənəvi (etik) subyektə çevrilməsi üçün o, dövlətin təməlini təşkil edən universal etik prinsipləri mənimsəməli və öz iradəini bu ictimai mənəviyyat normalarını müvafiq şəkildə formalaşdırmağa borcludur." [6, 100]. S.Kiyerkeqora görə fərd cəmiyyətin əxlaq qaydalarına əməl etməli idi. Qurbanın faciəsi isə onda idi ki, o fərdi arzusunu ictimai əxlaqdan üstün tuturdu.

Əsərə əsasən insanın azadlığı konsepsiyasını hər iki əsərdəki qəhrəmanın həyat yolunu izləyərək təhlil etmək olar. Əgər S.Kiyerkeqorun “Qorxu və titrəmə” əsərində İbrahim peyğəmbər imana görə sınağa çəkilirsə, Ə.Haqverdiyevin “ Pəri Cadu”

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 5, 2026
Səh. 443-451

əsərində Qurban nəfsi ilə sınağa çəkilir. Biz burada Qurbanın hərəktlərini "etik olanın tapdanması" və cəmiyyətdəki mənəvi dəyərlərin pozulması prizmasından analiz edə bilərik. S.Kiyerkeqorun "Qorxu və titrəmə" əsərində təsvir etdiyi İbrahim obrazının ali sınağından fərqli olaraq, Qurban müvəqqəti bir həzz üçün öz mənəvi azadlığını itirmiş olur. Birinci əsərdə sınaq müsbət və transsendental xarakter daşıyır, insanın tanrı qarşısında "qorxu və titrəməsi" müqəddəs bir fonda təsvir olunur. Burada fərd etik olanı daha ali məqsəd- Tanrıya qovuşmaq üçün aşırsa, "Pəri Cadu " əsərində insan nəfsinin arxasınca qaçaraq mənəvi tənəzzülə uğrayır.

S.Kiyerkeqorun fəlsəfəsinə görə, insanın seçimləri təkcə onun iradəsindən asılı deyil, həm də fərdin varlıq səviyyəsində ekzistensiyasını müəyyənləşdirməsi, onun özünü yenidən yartmasıdır. Lakin bu seçmini etmək fərd üçün çətindir, çunki bu həyəcana (angst) səbəb olur. Qurbanın vəziyyətində onun mahiyyətini müəyyən edən ən böyük seçim keçmişindən imtina etməsidir və etik normaları aşmasıdır. Qurbanın seçimi onun ekzistensiyasını müəyyənləşdirmir, əksinə onun bu absurdun içərisində özünü itirməsi ilə nəticələnir

Əgər S.Kiyerkeqora İbrahimini hərəkətə gətirən qüvvə İlahi vəhy və Tanrının əmrini yerinə yetirməkdirsə, Haqverdiyevin qəhrəmanını motivə edən qüvvə onun mənfi ehtiraslarıdır, digər əsərdən fərqli olaraq burada heç bir ruhani motiv yoxdur. Eyni zamanda, S.Kiyerkeqorun İbrahimi bu sınaq nəticəsində ilahi mərtəbəyə yüksəlirsə, Haqverdiyevin qəhrəmanı etik dəyərləri aşdığı üçün tənəzzülə uğrayır. Başqa sözlə, İbrahim Tanrı qarşısında "titrəyərək " öz varlığını təsdiq edirsə, Qurban öz mənfi ehtiraslarının qarşısında titrəyərək öz "mən"indən uzaqlaşır. O, öz vicdanı ilə istəkləri arasında sıxılıb qalan" özgələşmə" prosesi yaşayan bir obrazdır İbrahimdə bir yenilənmə və özünü tapma aktı mövcuddur, Qurban isə mənfi ehtiraslarının qurbanına çevrilir. Bu vəziyyəti Martin Haydeggerin ekzistensial fəlsəfəsindəki "insanın öz mahiyyətini itirərərk "Das Man"a çevrilməsi" konsepsiyası ilə izah etmək olar. M. Haydeger fəlsəfəsi baxımımdan əsərə yanaşsaq Qurban öz fərdi mahiyyətini itirmiş, özü olmayan varlıqdır. O, öz həqiqi mənliyini tapmaq əvəzinə kütlənin içərisndə əriyərək yox olur.

M.Haydegger belə hesab edirdi ki insanın mahiyyəti "qayğı"dan ibarətdir və onlar mövcud olduqca insan da var olur. Filosof burada "Daseini"( orada-varlıq) nəzərdə tutur. "Dasein-ın "mahiyyəti" onun öz ekzistensiyasında ehtiva olunur. Bu varlığın (Dasein) aşkar edilə bilən ontoloji xüsusiyyətləri, hər hansı bir obyektin (hazır-mövcud olanın) sahib olduğu statik keyfiyyətlər deyil; əksinə, bunlar hər zaman fərdin öz mövcudluq imkanlarıdır və bundan başqa heç nə deyildir. [4, 78].

"Pəri Cadu" əsərindəki Qurbanın naratlığı və qayğıları, ilk növbdə ailəsini maddi cəhətdən təmin edə bilməməsi ilə bağlıdır. "Əh, Allah kəssin belə günü. Axşamadək erməni eşşəyi kimi işləyirsən, elə acsan ac. [2, 122]. Bu artıq onun autentik varlığınıdan uzaqlaşmasını və "Das mana"( kütlə) çevrilmsini ifadə edir. M.Haydegger "Das man" dedikdə öz fərdi mahiyyətini itirib kütləyə qarışmış "hər

kəs kimi”olan, “həqiqi insan” dedikdə isə öz fərdiliyini dərk edən insanı -“Daseini” nəzərdə tuturdu.

Haydegger belə hesab edirdi ki, insan dünyadakı maddi şeylərini itirərkən keçirdiyi ekzistensial təşviş (Angst) onu “Das Man”ın saxta mühitdən uzaqlaşırıb öz həqiqi mənşəyinə qaytara bilər. Əsərin başlanğıcında Qurban kütlənin bir parçasıdır. O, bu həyatı özü seçməyib, lakin tez-tez özünə bu sulları verir: Mən niyə kasıbam? Niyə mənim gözəl arvadım yoxdur? Bu “dünyaya atılmışlıq” hissi onu çarə axtarmağa sövq edirdi. Qayğıların yaratdığı Qurbanda yeni bir “mən”lik arzusu doğur. Lakin tam bu nöqtədə Qurban fərdi məsuliyyətdən qaçaraq Şamama qarıdan kömək istəyir və bununla da “Dasein” olmaqdan çıxıb, öz autentik mahiyyətini tamamilə itirir. Şamama qarıya sığınmaq - Qurbanın öz azad seçimlərinin məsuliyyətini öz üzərindən atması deməkdir. Şamama ilə sövdələşmə məqamında onun keçirdiyi tərəddüdlər və qorxu, əslində onun daxilindəki autentik varlığın tamamilə yox olmamışdan qabaq göstərdiyi sonuncu daxili çırpınışdır: “Yaxşı, elə tutaq mən səninlə getdim. Hafizə Xanım da mənə gəldi. Bəs mən bu külfəti neyləyim? Arvad çirkin isə də, hər nədir, bir dəfə keçib boğazıma. Əlimdə də bir uşaq var. Onları mən kimin ümidinə qoyum?” [2, 127]. Əslində burada Şamama sadəcə bir cadugər obrazı deyil, Qurbanın məsuliyyətindən qaçmaq istəyinin təzahürüdür. O, Qurbanın gizli arzularını və dünyəvi həzzə olan meylini simvolizə edirdi. Ekzistensializmə görə bu cür yanlış “azadlıq” fərdi ontoloji böhrana sürükləyir, heçliyə aparır. Qurbanın öz ruhunu satması, mənliyindən imtina edərək daxili azadlığını “ Das Man”ın diktə etdiyi həyata qurban verməsidir.

Finalda Qurban keçirdiyi dərin ekzistensial təşviş (Angst) bu mənəvi böhran onu “Das Man”nın saxta mühitindən uzaqlaşdırıb həqiqi mənliyinə qaytarması ilə nəticələnir. Səlimə və övladının xəyalının onun gözünün önündə canlanması Qurbanı autentik varlığına dönüşünü simvolizə edir. Qurban artıq malik olduğu maddi nəsnələrin heç bir mahiyyəti olmadığı analayır, bu dərketmə isə daxili azadlıq halıdır. Final səhnəsində öz fərdi mahiyyətini itimiş Qurban yenidən ontoloji mənşəyinə qayıdır. Onun Pərini öldürməsi, əslində öz saxta kimliyini və “estetik” mərhələni yox etmək cəhdidir, çünki Pəri yaşadıqca onu yenidən köhnə həyata geri çəkə bilərdi. Lakin onun keçmişində mənfi etiraslarının metaforik əksi olan Şamama qarı faktoru hələ mövcud idi. Sonda Şamama qarının Qurbanı boğması fərdin öz keçmişi və nəfsi qarşısındakı məğlubiyyətidir. M.Haydegger qeyd etdiyi kimi dasein bəzən kainatın qarşısında aciz qalır, çünki varlığın elə qüvvələri var ki, onlar fərdin iradəsindən kənarda dayanır. Hadeggerin fəlsfəsinə görə Qurban Pərini öldürməsi, onun azadlıq üsyanı idi. Həqiqətin səsi olan Şamam cadu isə ona bir daha qaranlıq keçmişindən qaçıb qurtula bilməyəcəyini xatırlatdı.

Göründüyü kimi ekzistensial “varlıq qayğısı” Qurbanın həyat istiqmətini tamamilə dəyişdi. Beləliklə, Haqverdiyev Qurban obrazı vasitəsilə insanın

özgələşmə prosesinin özünəməxsus bədii formada təsvir etmişdir. Yoxsul Qurbanın zənginləşməsi, əslində, onun mənəvi deqrdasiyası idi, M.Haygedderin dili ilə desək "varlığın unudulması" prosesi idi. Əsərdəki cadu motivi əslində insanın məsuliyyəti öz üzərindən atmasını simvolizə edən metaforik vasitədir. Əsərin sonunda aydın olur ki, dünyadakı heç bir xəzinə insanın mənəvi yoxsulluğunu doldura bilməz. Bu bir növ müasir dövr insanlıq üçün də xəbərdarlıq və ekzistensial çağırış kimi görünə bilər.

Ümumilikdə, J.P.Sartr, A.Kamyu, S.Kiyerkeqor və M.Haydeggerin ekzistensialist fəlsəfəsinin mərkəzində insanın azad seçimləri dayanır. Yuxarıda qeyd olunan hər bir filosofun baxış bucağından nəzər yetirdikdə aydın görünür ki, Qurbanın faciəsinin kökündə onun seçimləri dayanır. Məhz bu seçimlər Qurbanın ekzistensial böhranını sürətləndirərək onun qaçınılmaz sonunu gətirir. Yazıçı burada Pəri Cadu obrazı vasitəsilə magik müdaxilə edərək əslində Qurbanın daxili aləminə güzgü tutmuş olur. Pəri Cadu obrazı fərdin gizli qalmış mənfi ehtiraslarını və iradəsizliyini əks etdirən simvolik bir vasitədir.

## Ədəbiyyat siyahısı:

1. Albert Camus " Sisifos Söyleni", Can Sanat Yayınları, 2010
2. Ə. Haqverdiyev " Seçilmiş əsərləri" I cild ,Bakı , 2005
3. Ə.Haqverdiyev " Uca dağ başında", Bakı , 2006
4. Haydegger "Varlık ve Zaman", Alfa basım, 2021
5. Jean Paul Sartre "Varlık ve hiçlik", İthaki, 2009
6. Kierkegaard "Korku ve titreme" ANKA yayınları , 2002
7. Z. Hacıyev "Fəlsəfə", Bakı , 2012

## THE EXISTENTIAL CRISIS OF HUMAN AND ALIENATION IN A. HAGVERDIYEV'S PLAY PARI JADU

**Salayeva Shabnam Adalat**
**Azerbaijan University**

## SUMMARY

The article investigates the play Pari Jadu by A. Hagverdiyev, a notable representative of Azerbaijani classical drama, from a new scholarly and theoretical perspective. The primary objective of the study is to demonstrate that the use of mystical elements in the work is not only related to folklore, but also represents the ontological crisis of the images. The article addresses human alienation or loss of the essence of person's own being, using the example of Qurban, one of the major characters of the play, against the backdrop of the escalation of tensions between society and individual aspirations. The moral decay of Gurban is examined in the context of an existential crisis. The image of Gurban will be studied not only as that of a poor peasant who wishes to become wealthy, but also as that of a modern person

who has lost the essence of his existence and is helpless in the face of the question "who am I"? The writer's reflection on human responsibility over one's own destiny, which combines magical thinking with realistic depictions in the play, is examined in terms of philosophical psychological aspects, and the characteristics of the work's transition from classical play to philosophical existential play are identified.

**Keywords: existential crisis, existentialism, mysticism, alienation, free will, tragedy.**

**Экзистенциальный кризис человека и проблема отчуждения в драме А. Хагвердиева «Пари Джаду»**

**Салаева Шабнам Адалат**
**Азербайджанский Университет**

**Резюме**

В статье рассматривается драма «Пари Джаду» А. Хагвердиева, видного представителя азербайджанской классической драмы, с новой научной и теоретической точки зрения. Основная цель исследования – показать, что использование мистических элементов в произведении не только связано с фольклором, но и отражает онтологический кризис образов. В статье на примере Курбана рассматривается отчуждение человека вследствие утраты сущности собственного существования, обострение противоречий между общественными и индивидуальными желаниями, а также моральная эрозия образа Курбана, одного из центральных персонажей драмы. Образ Курбана будет изучаться не только как образ бедного крестьянина, стремящегося разбогатеть, но и как образ современного человека, утратившего сущность своего существования и беспомощного перед вопросом «кто я?». Размышления писателя об ответственности человека за собственную судьбу, сочетающие в драме магическое мышление с реалистическими изображениями, рассматриваются с точки зрения философско-психологических аспектов, а также выявляются особенности перехода произведения от классической драмы к философской экзистенциальной драме.

**Ключевые слова: экзистенциальный кризис, экзистенциализм, мистицизм, отчуждение, свобода воли, трагедия.**

**Rəyçi: fil.e.d., prof. Qorxmaz Quliyev Həsi**